ISSN -76419

AZƏRBAYCAN AQRAR ELMİ

1-3
2004

NAXÇIVAN MR-da İKSODOFAUNA VƏ KƏND TƏSƏRRÜFATI HEYVANLARININ YOLUXMA VƏZİYYƏTİ

V. A. SEYİDOV,
Naxçıvan Elmi Tədqiqat Baytarlıq Stansiyası

İnsan və heyvanların bir sıra infeksion və parazitar xəstəliklərinin törədicilərini iksod gənələri öz orqanizmalarında saxlayır və qan sorarkən həmin törədiciləri sağlam heyvanlara keçirməklə bu xəstəliklərin yayılmasına səbəb olurlar. Buna görə də həm geniş həm də məhdud ərazi çərçivəsində bu qrup buğumayaqlıların ətraflı öyrənilməsi vacib məsələlərdən biridir.

Naxçıvan MR-nin iqtisadiyyatının əsas sahələrindən biri heyvandarlıqdır. Lakin muxtar respublika ərazisində geniş yayılmış qan parazitar xəstəlikləri burada heyvandarlığın inkişafına külli miqdarda zərər vurur. Onun baş sayının və cinsinin yaxşılaşdırılmasında çətinlik törədir. Məlumdur ki, həmin xəstəliklərin yayılması və təbiətdə saxlanılmasında əsas rolu iksodidə ailəsinə mənsub olan gənələr oynayır. Bu xəstəliklərin qarşısının alınması üçün planlı gənəəleyhi tədbirlərin aparılması vacibdir. Həmin tədbirlərin vaxtında və səmərəli aparılması üçün iksodidə ailəsindən olan müxtəlif növ gənələrin muxtar respublika ərazisində coğrafi qurşaqlar üzrə yayılma vəziyyətini, onların parazitliketmə müddətlərini və heyvanlarını bu və ya digər növ gənələrdə yoluxma səviyyəsinin vəziyyətini öyrənmək lazımdır.

1987-1990-cı illərdə muxtar respublikanın ayrı-ayrı coğrafi qurşaqlarında aparılan ekspedisiyalar zamanı 14207 baş 8 növdən olan kənd təsərrüfatı, 299 baş 10 növdən olan vəhşi heyvanı, 477 baş 11 növdən ibarət quşun və 296 fərd 6 növdən olan sürünən heyvanların gənələrdə yoluxmasının vəziyyəti yoxlanılmışdır.

İksod gənələri kənd təsərrüfatı heyvanlarından il ərzində, vəhşi məməli, sürünən heyvanlardan və quşlardan isə ilin isti aylarında (may, oktyabr) toplanmışdır. Beləliklə yoxlanmış kənd təsərrüfatı heyvanlarının 5512 (38,8%) başında, vəhşi məmələrin 129 (43,1%), sürünən heyvanların 64 (21,6%) fərdində və quşların 50 (10,5%) başında iksod gənələrinin parazitlik etməsi müəyyən edilmişdir.

Kənd təsərrüfatı heyvanlarının növləri üzrə gənələrlə yoluxma vəziyyəti aşağıdakı kimi olmuşdur. Belə ki, yoxlanmış 4649 baş qaramalın 2624 (56,4%), 1288 baş camışın 297 (23,1%), 5417 baş qoyunun 2017 (37,2%), 1560 baş keçinin 407 (26,1%), 512 atın 77-də (15,0%), 377 ulağın 47-də (12,5%), 252 itin 31-də (12,2%) və 149 pişiyin 12-də (8,1%) başında iksod gənələrinin parazitlik etməsi aşkar edilmişdir.

Tədqiqat müddətində yoxlanmış bütün heyvan və quşlardan 51509 fərd gənə toplanmışdır. Hansı ki, onun 30575 fərdi imaqo, 8483 fərdin imfa, 5529 fərdi sürfə mərhələsində olan iksod gənəsindən və 6922 fərdi müxtəlif inkişaf mərhələsində olan arqas gənəsindən ibarətdir.

İmaqo mərhələsində olan iksod gənələrinin 30025 fərdi (98,2%) kənd təsərrüfatı heyvanlarından, 550 fərdi (1,8%) isə vəhşi məməli, sürünən və quşlardan toplanmışdır. Kənd təsərrüfatı heyvanlarından toplanmış gənələr orta hesabla hər bir baş yoluxmuş heyvana 5,4 fərd və hər bir baş yoxlanmış heyvana 2.1 fərd təşkil edir.

Məlum olmuşdur ki, İKSODİDE ailəsinə mənsub olan 6 cinsdən 4 cinsin 16 növü Naxçıvan MR ərazisində parazitlik edir. Buraya Hialoma cinsinə mənsub olan 7 növü: hi. anatolikum, hi. aziatikum, hi. detritum, hi. kazlovi, hi. marginatum, hi. skurenze, hi. eqiptium, Dermasentor cinsinə mənsub olan 4 növ: D. marginatum, D. ratikulatus, D. usakove, D. nuttali, Ripisefalus cinsinə daxil olan 3 növ: R. bursa, R. sankviteus, A. Turanikus, hemafisalis cinsinə mənsub olan 2 növ: N. punktata, H. sulkata növləri daxildir.

Kənd təsərrüfatı heyvanlarının növündən asılı olaraq gənələrlə yoluxma səviyyəsi müxtəlifdir. Belə ki, ən çox yoluxma may-sentyabr aylarında inəklərdə müşahidə edilməklə 56,4% təşkil edir. Yoluxma ehtimalına görə ikinci yerdə qoyunlar

(37,2-90,0%), üçüncü yerdə keçilər (26,1-50,5%), dördüncü yerdə camışlar (23,1-40,4%) durur. Digər növ kənd təsərrüfatı heyvanlarının yoluxma faizi 8,0-40,0% arasında dəyişir.

İksod gənələrinin təbiətdə saxlanması və inkişafında, habelə bir ərazidən digər əraziyə daşınmasında vəhşi heyvanların və quşların rolu çox böyükdür. Buna görə də vəhşi heyvanlar, sürünənlər və quşlar arasında aparılan yoxlama zamanı vəhşi məməlilərdən 295 fərd, sürünənlərdən 220 fərd və quşlardan 3 fərd imaqo mərhələsində olan iksod gənələrinin əsas sahiblərindən hesab olunmalıdır.

Vəhşi heyvanlar arasında yoluxma faizi müxtəlifdir. Ən çox yoluxma çöl siçanlarında (60,3%), dovşanlarda (55,6%), tülkülərdə (54,5%) və canavarlarda (50,4%) müşahidə edilir. Digər vəhşi heyvanların (çaqqal, kirpi, anbar siçovulu və s.) yoluxma səviyyəsi 24,3-47% arasında dəyişir. Hər bir baş vəhşi heyvana düşən gənələrin sayına görə birinci yerdə tülkülər (8,5 fərd), ikinci yerdə çöl siçanları (6,7 fərd) və nəhayət canavarlar (6,4 fərd) durur. Nisbətən az miqdarda ev siçanları (2,3 fərd), yarasalar (1,0) yoluxurlar.

Vəhşi heyvanların yoluxması nəticəsində onlarda on növ iksod gənəsinin; hi. anatolikum, hi. aziatikum, hi. detritum, hi. marginatum, R. bursa, R. sankvineus R. turanikus, h. punktata, h. sulkata, D. marginatus parazitlik etməsi müəyyən olunmuşdur.

Sürünən heyvanlarda 5 növ: hi. eqiptium, hi. aziatikum, R. tuvanikus, h. pinktata, h. sulkatanin parazitlik etməsi müəyyən olunmuşdur. Ən yüksək yoluxma səviyyəsi və faizi səhra tısbağalarında (9,9 fərd) müşahidə olunur. Digər sürünənlərdə bu 1,0-3 fərd təşkil edir hi. eqiptium gənələri ancaq səhra tısbağalarında parazitlik edib, digər növdən olan heyvanlara hücum etmir və qidalanmır.

Quşlar arasında yayılmış iksod gənələrinin faunasını öyrənmək məqsədi ilə 11 növdən olan 477 quş yoxlanmışdır. Buraya aşağıdakı növlər daxildir: ev göyərçini, ala qarğa, çöl qarğası, vəhşi ördək, kəklik, sığırçın, ev qazı, toyuq, hind quşu, sağsağan daxildir.

Müxtəlif növ quşların yoluxma səviyyəsi də eyni deyildir. Belə ki, ən çox yoluxma kəkliklərdə (53,0%), ala qarğada (44,4%), çöl qarğasında (41,7%), sığırçınlarda (37,5) və sağsağanlarda (30,8%) olmuşdur. Ev toyuqları (1,4%) və hind quşlarında (5,6%) yoluxma nisbətən az olmuşdur. Ev qazlarında yoluxma müşahidə edilməmişdir.

Quşlarda 5 növ: hi. aziatikum, hi. marginatum, R. turanikus, h. punktata və h. sulkata iksod gənəsinin parazitlik etməsi müəyyən olunmuşdur. Quşlarda əsasən yetkin mərhələyə çatmamış (sürfə və nimfa), parazit fərdləri üstünlük təşkil edir. Belə ki, toplanmış 241 fərdin 35 fərdi imaqo (14,5%), 206 (85,5%) fərdi sürfə və nimfalardan ibarət olmuşdur. Bu onu göstərir ki, quşlar iksod gənələrinin sürfə və nimfalarının qidalanmasında, yayılmasında və təbiətdə saxlanılmasında əsas rol oynayır. Quşların gənələrlə yoluxma intensivliyi də müxtəlifdir. Belə ki, hər baş quşa düşən gənələrin sayına görə sığırçınlar (9,3 fərd), çöl göyərçini (8,4 fərd), kəkliklər (7 fərd) üstünlük təşkil edirlər.

Digər quşlarda yoluxma intensivliyi 3,3-3,7 fərd arasında dəyişir. Bu və ya digər iksod gənəsi müxtəlif növ quşlarda parazitlik edir. Belə ki, hi. aziatikum və h. punktata 5 növ, hi. marginatum və h. sulkata 4 növ, R. turanikus 3 növ quşda parazitlik edir.

Quşlar arasında parazitlik edən h. punktata növləri dominatlıq təşkil edirlər. Hansı ki, bu növ gənələr quşlardan toplanmış ümumi materialın 53,5%-ni təşkil edir. Bütün bunlardan başqa muxtar respublikada quşlar arasında A. persikus növ gənələri geniş yayılmışdır.

Ümumiyyətlə, muxtar respublika ərazisində 4 növ iksod gənəsi hi. aziatikum, hi. anatolikum, R. bursa və D. marginatus ən geniş yayılmış gənələrdəndir.

Göstərilənlərdən belə nəticə çıxarmaq olar ki, iksod gənələri muxtar respublikada geniş yayılmış və onların çoxalması üçün burada əlverişli şərait vardır. Buna görə də onlara qarşı ciddi mübarizə aparmaq heyvandarlıqda ən ümdə məsələlərdən biri olmalıdır.

AZƏRBAYCAN AQRAR ELMİ

АГРАРНАЯ НАУКА АЗЕРБАЙДЖАНА

AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNİN ELMİ-NƏZƏRİ JURNALI

İldə 6 dəfə çıxır

1968-ci ildən nəşr edilir

НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ ЖУРНАЛ МИНИСТЕРСТВА СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Выходит 6 раз в году

Издается с 1968 года

1-3 (201) 2004

BU SAYIMIZDA

İQTİSADİYYAT VƏ İQTİSADİ MÜNASİBƏTLƏR

●E.R. İBRAHİMOV. Aqrar sahədə sahibkarlığin formalaşdırılması və inkişafı xüsusiyyətləri 4
●C. S. ZEYNALOV. Bazar şəraitində aqrar sahədə vergi sistemi 8
●С.В.САЛАХОВ. Проблемы воспроизводства в АПК в условиях рыночной экономики 11
●V.A.HÜSEYNOV. Kənd təsərrüfatı məhsullarının ixracının səmərəli təşkili 15
●И.В.АХМЕДОВ. Особенности и организационные формы предпринимательства 21
●A.F. ABBASOV. Qloballaşma şəraitində aqrar sferada dövlətin iqtisadi maraqlarının reallaşdırılmasının bəzi məsələləri 31
●Р.М.КУЛИЕВ. Организация и устройства территории крестьянских (фермерских) хозяйств в условиях Азербайджанской Республики 37
●Ş. N. XURŞUDOV. Bazar iqtisadiyyatı şəraitində məhsulun keyfiyyəti və rəqabət qabiliyyətinin yüksəldilməsi problemləri 41
●S.N. ŞAMOYEV. Bazar iqtisadiyyatı şəraitində sosial sfera sahələrinin içtimai əmək bölgüsündə rolu 42
●N.Q.KƏRİMOV. Kənd təsərrüfatı istehsalının səmərəliliyi və onun xüsusiyyətləri 45
●С.В. САЛАХОВ. Вопросы ценообразования в аграрном секторе 47

ƏKİNÇİLİK

●V.H. HƏSƏNOV, A.Ə. XƏLİLOVA. Alazan vadisi torpaq örtüyünün strukturasına və torpaqların diaqnostik göstəricilərinə relyef şəraitinin təsiri 52
●T.A. XƏLİLOV. Kür -Araz ovalığının və Suriya Ərəb Respublikasının meliorasiya olunan torpaqlarının ekoloji şəraiti və müqayisəli səciyyəsi 56
●S. H. RƏSULOVA. Gəncə-Qazax zonasında üzüm becərilən torpaqların münbitliyinin müasir səviyyəsi və monitorinqi 62
●Л.А.БАБАБЕКОВА. Влияние беспозвоночных животных на биохимическую активность почв 64
●А.Ф.ГАСАНОВА, Ю.Х.МУСТАФАЕВ. Экологические аспекты воспроизводства почвенного плодородия зимних пастбищ Азербайджана 67
●A. F. HƏSƏNOVA. Azərbaycanda qış otlaqları torpaqlarının ekoloji rayonlaşdırılması 72
●H.C.MEHDİYEV, B.H.MƏMMƏDOVA. Yüksək maqneziumlu serpentinitin Muğan düzü suvarılan çəmən-boz torpaqlarında taxılaltı torpaqların xassələrinə və fosforun mənimsənilməsinə təsiri 78

●M. V. ABDULLAYEV, V. M. OCAQQULİYEV, M. Q. BALAKİŞİYEV
Qoyunçuluq məhsullarının səmərəli istehsalının artırılması imkanları 154
●M. İ. RƏHİMOV, A. H. MÖVSÜMOV, A. S. İSMAYILOV.
Buzovların bəslənib saxlanmasında mütərəqqi texnoloji üsulların tətbiqi 156
●V. A. SEYİDOV. Naxçıvan MR-da iksodofauna və kənd təsərrüfatı
heyvanlarının yoluxma vəziyyəti. 157
●И.Б.ЗАМАНОВ. Определение оптимальной дозы солей микроэлементов -
кобальта, меди, марганца, цинка для овец балбасской породы 159
●M.H.HACIYEV. Azərbaycanın Qərb bölgəsində quşçuluğun
inkişafı günün tələbidir 164

YEMÇİLİK VƏ YEM İSTEHSALI

●C.X.SƏTTAROV, V.M.ƏBDÜRRƏHMANOV, N.USEYNOVA,
N.MƏSİMOV. Xaşa bitkisindən yüksək keyfiyyətli quru otun
hazırlanmasının bəzi texnoloji üsulları. 167
●A.K.HÜSEYNOV. Azərbaycanın rütubətlə təmin olunmuş bölgələrində
xaşanın becərilmə texnologiyası 169
●S.Z.ƏLİYEV, A.K.HÜSEYNOV, Y.Q.İBRAHİMOV. Günəbaxan
bitkisinin becərilmə texnologiyası 173
●Ə.İ.ƏHMƏDOV. Quraqlığa davamlı soya sort nümunələrinin
hibridləşmə üçün valideyn genotiplərinin seçilməsi 175

BİTKİ MÜHAFİZƏSİ

●Y. M. MƏMMƏDOV, A. Y. MƏMMƏDOVA. Qırmızıdöş zəlicə
(lema melonopus L) böcəyinin Naxçıvan MR-sı şəraitində yayılması
və inkişaf dinamikası 177
●Н.Х.МАМЕДОВА, Г.М. ШЫХЛЫ. Изучение устойчивости
коллекционных сортов хлопчатника к болезням 179

MEXANİKLƏŞDİRMƏ

●K. H. FƏTƏLİYEV, İ. A. ALIYEV, E. A. PAŞAYEV. Texniki
servis mərkəzlərinin texniki tərkibinə bazar iqtisadiyyatının təsiri 181
●S.A.ASANOV, N.M.HACIYEV, E.Z.MƏMMƏDOV.
Tut meyvəsinin tərpənməz qatda qurudulmasında təcrübi məsələlər 184
●K. H. FƏTƏLİYEV, İ. A. ALIYEV, E. A. PAŞAYEV.
Kənd təsərrüfatı texnikasının normativi üçün bitki növünün seçilməsi 188
●H. K. FƏTƏLİYEV. Azərbaycan şərablarının texnologiyasının
yaxşılaşdırılması yolları 189
●S.Z.MƏMMƏDOV. Heyvandarlığın ayrı-ayrı texnoloji proseslərinin
enerji sərfiyyatının hesablanma metodikasının əsaslandırılması 198
●С.А. КАТИБЛИ, Г.И. ВАЛИЕВ. Теоретические исследование
сопротивления черенкового ножа и сферического диска 201
●Г.Б.МАМЕДОВ. Проблемы малой фермы и тенденции их решения. 202
●S. B.KAZIMOV, A. Ə MƏMMƏDOV. Tərkibi vitamin və başqa qidalı
maddələrlə zənginləşdirilmiş yeni kəsmik məhsulunun tədqiqinin nəticələri 206
●A. H. HƏSƏNOV. Sümük həliminin texnoloji xüsusiyyətləri
və onun milli kulinariyada istifadəsinin tədqiqi 210
●S. A. ASANOV, İ. M. HACIYEV, E. Z. MƏMMƏDOV,
Q. Y. BAYRAMOVA. Əvəlik yarpaqlarının qurudulmaya
hazırlanmasında əsas məsələlər. 212
●Ş.N. XURŞUDOV. Üzümçülük-şərabcılıq yarımkompleksi sistemində
texniki təchizat və texniki xidmətin təşkilinin təkmilləşdirilməsi. 219
●R. M. AĞAYEV. Müasir kənd təsərrüfatı müəssisələrinin
texniki təminatının əsas problemləri 221
●И.И. ИСМАИЛОВ. Эксплуатационно-надежностные показатели тракторов New
Holland в условиях Азербайджанской республики 222

Səh. 407 ⟶